

Simax Şeyda

# Simax Şeyda – 80

## YAZ KÜLƏKLƏRİ

Oyanır təbiət qış yuxusundan,
Yenə cana gəlir hər tərəf, hər yan.
Böyük məhəbbətlə dillənir insan,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz külәkləri, yaz küləkləri.

Çıxıb novruz gülü, nərgiz, bənövşə,
Yaşıl don geyinir çöl, çəmən, meşə,
Lalə baş qaldırıb baxır günəşə,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

Novruz bayramının gəlişi ilə,
Sevinc içindədir hər bir ailə,
Səslənir tar, qaval, saz gəlir dilə,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

Sizdə var nəfəsi kəndin, şəhərin,
Füsunkar Göygölün, mavi Xəzərin,
Ruhuma bir qədər təskinlik verin,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

Qapı, pəncərəmdən içəri dolun,
Darayın saçımı, həmdəmim olun,
Vətəndən gəlmisiz məlhəmim olun,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

Qürbətdə yaşamaq deyildir asan,
Vətən həsrətiylə qocalır insan,
Bakı, gözəl Oğuz çıxarmı yaddan,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

Quşlar cəhcəh vurur yenə ahəstə,
Uçurlar bağlarda hey dəstə-dəstə,
Bülbüllər də qonub güllərin üstə,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

Simaxın ürəyi biganə deyil,
Sizin yolunuzu gözləyir hər il,
Gülür gözlərində hər oba, hər el,
Əsin başım üstən, gəzin hər yeri,
Ay yaz küləkləri, yaz küləkləri.

## GƏLMƏMİŞƏM QÜRBƏTƏ

Vurur böyük sevinc ilə, fərəh ilə ürəyim,
Ağır günlər gəlib keçdi, Allah oldu köməyim.
Dadlı-dadlı yeməklərdən nuş edirəm özümçün,
Fikir, xəyal eyləmirəm nuru getmiş gözümçün.
Taleyin bu gününə də şükür olsun deyirəm,
Öz işimdə, gücümdəyəm əlimdən düşmür qələm.
Qəlbim mənim bir qaladır tab edir hər möhnətə,
Mən xoşbəxtlik tapmaq üçün gəlməmişəm qürbətə.

Ürək deyir, qələm yazır vətənimdən, elimdən,
Gəncə kimi şəhərimdən, Oğuz kimi gülümdən.
Xəyalımda Azərbaycan torpaqları canlanır,
Neçə-neçə oylaqları, oymaqları canlanır.
Bir muzeyə dönüb bu gün qədim İçərişəhər,
Heyran qalır bu yerlərə gəlib-gedən turistlər.
Hər gələndə Bakıya mən qəlbim gəlir riqqətə,
Mən xoşbəxtlik tapmaq üçün gəlməmişəm qürbətə.

İndi qürbət ölkələrdə qərib-qərib gəzən var,
Taleyindən inciyən var, taleyindən küsən var.
Vətənini atıb gəlib, bilmir o var, ya yoxdur
Qəlbi Şimal buzları tək gün görməyir, soyuqdur.
Atasını, anasını xəstə qoyub bəzisi,
Öz yurdundan, yuvasından daha doyub bəzisi.
Gəzir siqar çəkə-çəkə gah kənddə, gah şəhərdə,
Tab gətirsin ürək necə bu ağrıya, bu dərdə?
Zəhmət canın cöhəridir alışaq gəl zəhmətə,
Mən xoşbəxtlik tapmaq üçün gəlməmişəm qürbətə.

Qürbət mənim evim deyil, nə isti od-ocağım,
Nə Qubamdır, nə Şəmkirim, nə də gözəl Qazağım.
Fəxr edirəm doğulmuşam Azərbaycan elində,
Dolaşmışam, gəzmişəm mən çəmənində, çölündə.
Ana vətən eşqi ilə qoy döyünsün qəlbimiz.
Ondan böyük məhəbbətlə danışaq biz, gülək biz.
Çıxartmayaq Qarabağı yadımızdan bir an da,
Canımızdan keçək hətta o diyarın yolunda.
Birdəfəlik nöqtə qoyaq, ayrılığa, həsrətə
Mən xoşbəxtlik tapmaq üçün gəlməmişəm qürbətə.

## ANA

Gəlib girdin yuxuma sən bu gecə,
Tanıdım ağ saçlarını görüncə,
Aman allah! Dəyişmisən gör necə
Hardan bildin qürbətdəyəm, ay ana?
Qəm-qüssədə, həsrətdəyəm, ay ana!

Xeyli vaxtdır görmürdüm mən üzünü,
Eşitmirdim söhbətini, sözünü.
Neçin belə dəyişmisən özünü
Hardan bildin qürbətdəyəm, ay ana?
Qəm-qüssədə, həsrətdəyəm, ay ana!

Gəlişinlə sevindirdin qəlbimi,
Dilə gəlib sən dindirdin qəlbimi,
Sanki verdin mənə bütün aləmi,
Hardan bildin qürbətdəyəm, ay ana?
Qəm-qüssədə, həsrətdəyəm, ay ana!

Üstümdə var haqqın-sayın qədərsiz,
Ötüşmədi bir günün də kədərsiz.
Qarşında mən qoy baş əyim, çöküm diz,
Hardan bildin qürbətdəyəm, ay ana?
Qəm-qüssədə, həsrətdəyəm, ay ana!

Vətənimdən etdi məni xəstəlik,
Gözlərimin getdi nuru üstəlik,
Sıxır məni, üzür məni bu təklik,
Hardan bildin qürbətdəyəm, ay ana?
Qəm-qüssədə, həsrətdəyəm, ay ana!

Tez-tez isti nəfəsini anıram,
"Oğul" deyən xoş səsini anıram,
Yoxluğuna alışıram, yanıram,
Hardan bildin qürbətdəyəm, ay ana?
Qəm-qüssədə, həsrətdəyəm, ay ana!

Qürbət eldə asan deyil yaşamaq,
Ana dərdi, vətən dərdi daşımaq,
Daim düşür yada doğma od, ocaq
Hardan bildin qürbətdəyəm, ay ana?
Qəm-qüssədə, həsrətdəyəm, ay ana!

Simax, ana eşqi ilə alış, yan
Azdır ona yüz yol desən gündə can,
Qoyma getsin uzaqlara yanından,
Hardan bildin qürbətdəyəm, ay ana?
Qəm-qüssədə, həsrətdəyəm, ay ana!

## OXUYAN QUŞLAR

Az deyil qürbətdə oxuyan quşlar,
Hər quşun öz səsi, öz nəğməsi var.
Oxuyur bağlarda, ötür bağçada,
Kəkliklər, turaclar salır səs-səda.
Uçur qazalaxlar dəstəbədəstə,
Böyük məhəbbətlə budaqlar üstə.
Oxuyur həsrətlə torağaylar da,
Doğma od-ocağı salıram yada.
Elə bil Gəncədə, Oğuzdayam mən,
Səfalı Qubada, Tovuzdayam mən.
Vətən həsrətini unudum deyə,
Quşlar oxuyaraq uçurlar göyə.

Nurlu gözlərini açanda səhər,
Güləndə çöl, çəmən, yaşıl meşələr.
Uçar gah havada, gah gəzər yerdə,
Kiçik sığırçın da, alacəhrə də.
Oxşar ürəyimi onların səsi,
Onların qəlb açan şirin nəğməsi,
Gözəl tutuquşu oxuyan zaman,
Dağılar buludlar, çəkilər duman.
Dinər qaratoyuq qürbət eldə də,
Sanki çıxış edir çıxıb səhnədə.
Budaqdan budağa qonub bildirçin,
Bilmirəm həsrətlə oxuyur neçin.
Mənim tək yurdunu tərk edib bəlkə,
Fikir içindədir qürbət ölkədə.
Vətən həsrətini unudum deyə,
Quşlar oxuyaraq uçur göylərə.

Bülbülün nəğməsi başqadır ancaq,
Hansı quş oxuyar bilməm bu sayaq.
Susan ürəkləri gətirər dilə,
Gülləri məst edər məhəbbətilə.
Süleyman peyğəmbər, o müdrik insan,
Quşların dilini bilən, anlayan
Əgər sağ olsaydı həyatda bu gün,
Nələr danışardı, nələr bizimçün.
Ah, quşlar! Oxuyun şən-şən mahnılar,
Yaxına, uzağa yayılsın onlar.
Nə həsrət, nə bir qəm çəkim qürbətdə,
Sizin tək şadlanım, sevinim mən də.

## HƏM VƏTƏNİN, HƏM ANANIN, HƏM YARIN

Ürəyimdə məhəbbəti, eşqi var,
Həm vətənin, həm ananın, həm yarın.
Onlar məni daim gümrah saxlayar
Hifz eyləyər tufanından rüzgarın.

Yaşasam da hansı qürbət eldə mən,
Vətən olmuş ürəyimdə hər zaman.
Çaşıb qalsam səhrada mən, çöldə mən,
Odur məni saxlayan hər bəladan.

Başım üstə laylay çalan anamın
Könül açan xoş səsilə boy atdım.
Bir qardaşa həsrət qalan anamın
Doğma, isti nəfəsilə boy atdım.

Ah, analar! Ah, analar, nə qədər,
Bilməm sizdə övlad eşqi olarmış.
Vaxt olub ki, bir üzünüz gülümsər,
Bir üzünüz xəzan olmuş baharmış.

Başdan-başa dünya zülmət olardı,
Olmasaydı yer üzündə analar.
Tər çiçəklər saralardı, solardı
Belə dil-dil ötməz idi sonalar.

Bir gözəlin məhəbbəti oxşadı
İllər boyu ürəyimi həyatda.
Arzularım gül açmağa başladı,
Hər qüssəyə, qəmə dedim əlvida.

Simax Şeyda, yar çıxanda qarşına,
Çək nazını sən o, nazlı nigarın.
Pərvanə tək daim dolan başına
Bir Vətənin, bir ananın, bir yarın.

## QÜRBƏT GÜLLƏRİ

Sevirəm gülləri, tər çiçəkləri
Vardır ürəyimdə onların yeri.
Hər dəfə yurduma gələndə bahar,
Nərgizlər, reyhanlar ruhumu oxşar.
Laləli çöllərə yolum düşəndə,
Dərib gətirmişəm güllərdən mən də.
Kövrək bənövşələr hər vaxt, heç zaman,
Çıxmaz xatirimdən, çıxmaz yadımdan.
Vətəndən uzağa düşəndən bəri,
Açmır ürəyimi qürbət gülləri.

Qürbətdə rəngbərəng, gözəl güllər var,
Laləli çəmənlər, yaşıl çöllər var.
Açıb qırmızı gül, ağ gül, sarı gül,
Oxuyur eşq ilə bağçada bülbül.
Yenə bənövşənin əyridir boynu,
Bu halı pərişan eyləyir onu.
Səfərə çıxıbdı qışı dağların,
Gül-çiçək doludur döşü dağların.
Vətəndən uzağa düşəndən bəri,
Açmır ürəyimi qürbət gülləri.

Sevincim, fərəhim qalıb vətəndə,
Salıb itirmişəm bura gələndə.
Şirin gülüşlərim fikrə dalıbdı,
Xəzər sularında lövbər salıbdı.
Yerişim, duruşum əvvəlki deyil,
Bir özgə adamam indi elə bil.
Gəncədə, Oğuzda bitən güllər tək,
Qürbətdə ətirli deyil gül-çiçək.

Üreyim qalıbdır Azərbaycanda,
Hər gün gözəlləşən güllü məkanda.
Onunçün könlümün gülmür telləri
Oxşamır ruhumu qürbət gülləri.